**Etik müvəkkilin təyin edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN ƏMRİ

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etmək məqsədilə

**əmr edirəm:**

1. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanunun icrasına nəzarəti gücləndirmək məqsədilə Qanunun 20-ci maddəsinin 20.0., 20.0.1 bəndlərinə, 21-ci maddəsinin 21.1 və 21.2 bəndlərinə uyğun olaraq dövlət qulluqçularının xidməti davranışlarının qanunvericiliklə müəyyən olunan etik davranış qaydalarına uyğunluğuna nəzarət edən və onun təhlilini aparan işlərin yerinə yetirilməsini təmin etmək məqsədilə Dövlət qulluğu və təşkilati idarəetmə şöbəsinin müdiri Əsəd İsmayılov Energetika Nazirliyi üzrə Etik müvəkkil təyin edilsin.

1.1. Dövlət qulluğu və təşkilati idarəetmə şöbəsinin müdiri - etik müvəkkil Ə. İsmayılov "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin.

1.2. Struktur bölmələrin rəhbərləri və Nazirliyin strukturuna daxil olan qurumların rəhbərləri Qanunda nəzərdə tutulan etik davranış qaydalarının yerinə yetirilməsinə nəzarəti gücləndirsinlər.

2. Ümumi şöbə (E. Rzayeva) əmrin surətini aparatın struktur bölmələrinə, struktura daxil olan Dövlət Enerji Nəzarəti İdarəsi, Dövlət Qaz Nəzarəti İdarəsinə çatdırılmasını təmin etsin.

3. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**NATİQ ƏLİYEV**
**Azərbaycan Respublikasının energetika naziri**

12 aprel 2016-ci il
№ 11